# “Vətənim mənim”

**Azərbaycan Milli Xalça Muzeyində Əməkdar rəssam, qobelen ustası Adil Şıxəliyevin “Vətənim mənim” adlı fərdi sərgisinin açılışı olub. Sənətkarın yaradıcılığının 50 illiyi münasibətilə keçirilən tədbirdə 30-a qədər qobelen təqdim edilir.**



Burada rəssamın mühüm tarixi hadisələrə həsr olunan “Qarabağdan məktub”, “Zəfər yolu”, “Şuşa” (triptix), “Vətənim mənim”, “Şuşada toy” əsərləri, “Heydər Əliyev” portreti, milli ornamentlərlə zənginləşdirilmiş “Köç” qobeleni sərgilənir.

Rəssamın yaradıcılığında Abşeron motivləri mühüm yer tutur. Sərgidə məhz bu mövzuda “Abşeron”, “Nar bağı”, “Qızıl balıq” və “Mamırlı daşlar” əsərləri nümayiş olunur.

Rəssam öz əsərlərində real və mifik heyvanat aləmini də təsvir edir. Ruhun əyilməzliyini və döyüşkənliyini simvolizə edən xoruz, eləcə də əfsanəvi simurq quşu bir çox qobelenin qəhrəmanıdır.

Güllər və ağaclar da rəssamın diqqətini cəlb edir və nəticədə “Süsən”, “Baharın gəlişi”, əsas elemnti xarıbülbül olan “Şuşada toy” kimi əsərlər meydana çıxıb.

Sərgidə təkcə qobelenlər deyil, rəssamın ideyalarına həyat verən, onun özünün boyadığı iplər və onların rənglənməsində istifadə edilmiş bitkilər də nümayiş olunur. Bu əsərlər tamaşaçını A.Şıxəliyevin ecazkar yaradıcı dünyası ilə tanış edir.

***Fidan SALMANOVA***
***XQ***

Xalq qəzeti.- 2024.- 1 fevral, № 21.- S.10.